UOT 930; UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.5.83.032

# 1905-ci il 6-9 FEVRAL QIRĞINLARI ZAMANI ƏHMƏD BƏY AĞAOĞLUNUN FƏALİYYƏTİ

**AFİQ NADİROV**
*Azərbaycan Universitetinin doktorantı*
*E-mail: aphig.nadirov@gmail.com*

1905-ci ilin yanvar ayında Bakı şəhər ictimaiyyəti arasında şəhərdə erməni və azərbaycanlılar arasında gərgin hadisələrin baş tutacağı ilə bağlı şayiələr yayılmağa başlamışdı. Mənşəyi məlum olmayan bu şayiələrdə məhz ermənilərin zərər çəkəcəyi barədə məlumatlar dolaşırdı. İstənilən halda, gərginliyin fevral ayında baş tutacağına heç kimdə şübhə qalmamışdı, çünki fevralın 19-da şəhərdə siyasi nümayiş keçirilməsi planlaşdırılırdı. Bu nümayişdən diqqəti yayındırmaq üçün hökumətin millətlərarası gərginlik – milli qırğın planlaşdırması ehtimalı ən güclü ehtimallardan biri idi. Şəhər əhalisi arasında geniş yayılan bu şayiələr erməni və müsəlman azərbaycanlılar arasında rezonansa səbəb olaraq münaqişəni gözləniləndən daha tez başlatdı. 1905-ci il fevralın 6-da adlı-sanlı müsəlmanlardan olan Ağarza Babayev Parapet meydanından keçərkən qətlə yetirilir və bu xəbər anında bütün şəhərə yayılır [2, 324]. Beləliklə, erməni-müsəlman davasının fitili alovlanaraq şəhərdə qırğınlara səbəb oldu.

Mətbuatda erməni-müsəlman davası haqqında, onun səbəbləri və həlli yolları ilə bağlı ilk çıxış edən şəxslərdən biri ictimai və siyasi xadim Əhməd bəy Ağaoğlu oldu. O, daha sonra faciə günləri ilə bağlı istintaqa verdiyi ifadəsində hadisələrin başladığı anda, yəni 6 fevral günü şəhərdə məlum qətl hadisəsinin xəbəri yayılanda "Bakinskiye izvestiya" qəzetinin redaksiyasında olub və oradan çıxdıqdan sonra sonra ermənilərin A.Babayevi öldürdüyünü öyrənib. Bu münaqişənin yerində sakitləşməyəcəyini sezən Ə.Ağaoğlu dərhal evinə gedib və 7 fevral tarixində qubernatorun müşavirəsinə gedənə qədər evdən çıxmayıb [10].

Əhməd bəy Ağaoğlu baş verən qanlı qarşıdurma ilə bağlı ilk olaraq Bakı şəhərinin başçısı Konstantin Aleksandroviç İretskiyə məktub ünvanlayaraq erməni və azərbaycanlı nümayəndələrə çağırış edərək qırğınlara son qoyulması ilə bağlı müraciət etdi. 7 fevralda ünvanladığı ilk məktubunda K.A.İretskiyə bildirir ki, cəmiyyət arasında hələ də şübhəli şəxslər gəzərək xalqı yeni iğtişaşlara sövq edir [11]. Cənab İretskiyə məktubunda Əhməd bəy məsələnin həllini müsəlman və erməni ziyalılarının Dumaya çağırılıb barışıq əldə edilməsində görür. Lakin şəhər duması rəhbərliyinin laqeyd münasibətini müşahidə edərək bundan iki gün sonra 9 fevralda K.A.İretskiyə ikinci məktubunu yazır: "Şəhərdə dözülməz vəziyyət yaşanır. Şəhər camaatı bir-birinin üstünə hücum edir və artıq üçüncü gündür ki, administrasiyanın laqeyd seyrçiliyi şəraitində vəhşicəsinə bir-birini qırır. İşə qarışmaq, şəhər deputatlarını və hər iki tərəfin ruhanilərini ətrafınıza toplamaq, şəhəri gəzərək xalqı sakitləşdirmək Sizin borcunuzdur" [12].

Əhməd bəy yalnız siyasi və dinc yolla məsələnin həllinə çalışırdı. Bununla bağlı Dumanın rəhbərliyinə məsələ ilə bağlı az qalsın ki, hazır həll proqramı da təqdim edir. Belə ki, məktubunda K.A.İretskiyə bildirir ki, qubernatora müraciət edərək kazaklardan ibarət konvoyla erməni və müsəlman ruhanilərini dumaya toplasın, ermənilər tərəfdən Şagidanov, Qukasov və Saparov, müsəlmanlar tərəfdən İsmayıl bəy Səfərəliyev, Hacı Aslan Aşurov, Kərbəlayı Abdulla ağa Zərbəliyev, Kərbəlayı İsrafil Hacıyev, Fərrux bəy Vəzirov və başqaları ilə məsləhət etsin. Burada Əhməd bəy Ağaoğlu öz siyasi zəkasından istifadə edərək hər iki tərəfdən elə konkret şəxslər tövsiyə edir ki, onların doğrudan da millətlərarası münaqişəni həll edə biləcəyinə inanır.

Məktubun davamında qeyd edir: "Hər gün onlarla, yüzlərlə meyit küçədə atılmış qalır və onları yığışdırmağa heç kim tapılmır. Administrasiyanın fəaliyyətsizliyi şəraitində Sizdən, dumadan başqa şəhərin qayğısına kim qalmalıdır? Sizi inandırıram ki, misilsiz uğur əldə edəcəksiniz və Sizin adınız xilaskar, xeyirxah insan kimi bakılıların ürəyində həmişəlik həkk olunacaq. Lakin Allah xatirinə, tez, təxirə salmadan hərəkət edin. Unutmayın ki, qazanılan vaxtın hər saatı onlarla həyatı xilas edə bilər" [12].

Əhməd bəy Ağaoğlunun məktubda təkidlə tövsiyə etdiyi görüş 7 fevrala planlaşdırılsa da, təxirə salınaraq 9 fevral günorta saatlarında baş tutdu. Qubernator M.A.Nakaşidzenin yanında keçirilən müşavirədə qərar qəbul edildi ki, müşavirədən sonra gündüz saat 2-də erməni və azərbaycanlılardan ibarət nümayəndələr qubernatorun evindən çıxaraq şəhərin əsas küçələrinə yürüş etsinlər. Bundan sonra hər iki tərəfin nümayəndələrindən ibarət dəstə şəhərin küçələrində gəzərək hər iki tərəf arasında barışıq əldə olunduğunu elan etdi. Sülh yürüşündə dini camiədən quberniya müsəlman məclisinin sədri

Mir Məhəmməd Cəfərov və erməni provaslav keşişi, şəhər başçısı və qubernator, müsəlmanlar tərəfindən əlavə olaraq Əhməd bəy Ağaoğlunun təklif etdiyi siyahıdan İsmayıl bəy Səfərəliyev, Hacı Aslan Aşurov, Kərbəlayı Abdulla ağa Zərbəliyev, Kərbəlayı İsrafil Hacıyev, Həsənağa Həsənov da iştirak edirdi [2, 318]. Təxminən 4 saatlıq yürüşdən sonra onlar yenidən qubernatorun evinə qayıdaraq məşvərət etdilər [13, 140]. Əhməd bəy Ağaoğlunun zənni doğru çıxmışdı. Şəhərdə bundan sonra iğtişaşlar dayandırıldı.

"Bakinskiye izvestiya" qəzeti 13 fevral tarixində 22-ci nömrəsində yazır: "Müsəlman qazısının erməni yepiskopu ilə yan-yana getdiyi, şəhər camaatına tanış olan ermənilərlə müsəlmanların qucaqlaşıb addımladığı yürüşü görəndən sonra tərəflər dərhal atışmanı dayandırdı, "Ura! Sülh!" qışqırıqları eşidildi, insanlar eyvanlardan yaylıqlar yellədilər və sevinclə barışdırıcıları salamlayırdılar. Müsəlmanlar dərhal ermənilərlə qucaqlaşırdılar və dünənki "düşmənlər" bir-birinin əlini sıxır, öpüşür, haradansa gəlib çıxan faytonlara minir və barışıq əlaməti olaraq şəhəri dolaşırdılar. Küçələr tez bir zamanda baş verənlərdən sonra rahat nəfəs alan insanlarla doldu" [1, 3].

Əhməd bəy Ağaoğlunun qırğınlarla bağlı mətbuatda ilk çıxışı 13 fevral tarixinə təsadüf edir. Kaspi qəzetinin 1905-ci ildə çıxan 22-ci nömrəsində "Bizim rüsvayçılığımız!" adlı məqalə ilə çıxış edən Əhməd bəy Ağaoğlu millətlərin bir-birini qırmasını ağrılı hisslərlə ifadə edərək bildirir: "Nədən yer üzündəki ən müqəddəs tellərlə - qardaşlıq, vətən birliyi, tarix, adət-ənənə telləri ilə bir-birinə bağlı olan bu iki xalq birdən-birə bu qədər quduzlaşdı, belə vəhşicəsinə, belə mənasız və məqsədsiz bir-birinin üzərinə atıldı və yırtıcı heyvanlar kimi özlərinə əzab verməyə başladı?" [3, 3].

Göründüyü kimi, Əhməd bəy Ağaoğlu nə qədər gərginliklə məsələdən danışsa da, özünün xoş niyyətini bütün səmimiyyəti ilə bəlli edir. Cənubi Qafqazda qonşu olan iki millət hər nə qədər adət-ənənə və tarix baxımından ortaq cəhətlərə sahib olsa da, bu, onların eyni vətənə sahib olmalarına və "qardaşlığına" dəlalət etmir. Görünür, Əhməd bəy Ağaoğlu bu məsələdə ya tolerantıq nümayiş etdirməyə çalışır, ya da doğrudan da belə qənaətdədir. Lakin hər iki halda tarix və zaman Əhməd bəy Ağaoğluna yanıldığını, ermənilərin bu əməllərdə planlı şəkildə hərəkət etdiyini, əvvəlcə Çar Rusiyasının "göstərişi" əsasında bu işə qatılmışdılarsa, daha sonradan bunun üzərində "milli maraqlar" qurduqlarını sübut edəcəkdi.

Qırğınlarla bağlı Əhməd bəyin mətbuatda ikinci yazısı 15 fevralda dərc olunur [4, 3]. O, bu yazısında öz qələm yoldaşlarına – mətbuat xadimlərinə müraciət edərək "bizim vəzifəmiz"in nə olmalı olduğunu izah etməyə çalışır. Əhməd bəy burada təkcə öz tanıdığı-bildiyi şəxslərə deyil, sətiraltı olaraq qarşı tərəfə - erməni mətbuatına da ciddi mesaj ötürmək istəyir. Ağaoğlunun əsas məqsədi Qafqazda bu məsələ ilə bağlı digər mətbu orqanlarda tirajlanan saxta məlumatlara uymamağı hamının nəzərinə çatdırmaq idi. O qeyd edir ki, münaqişədə hər iki tərəf günahkardır və hər iki tərəf də peşmandır. Bəs biz mətbuat nümayəndələri niyə hər gün qırğınlarla bağlı faciəvi xəbərlər-yazılar yazırıq? Bu, sadəcə hər kəsin yarasını qaşımaqdan başqa bir şey deyil. Bizim vəzifəmiz odur ki, faciələrin səbəbkarını – şər qüvvələri tapıb ifşa edək. O, bir daha öz qələm yoldaşlarına müraciətdə bildirir ki, faciəni təsvir edən yazılardan çəkinmək lazımdır. Xüsusilə vurğulayır ki, bu cür hadisələri təsvir etmək və cəmiyyətə çatdırmaq üçün yetərincə soyuqqanlılıq və obyektiv münasibət bizlərdə formalaşmayıb. Böyük ehtimalla Əhməd bəy Ağaoğlu burada ermənilərin tirajladığı şişirdilmiş xəbərlərə xüsus verirdi. Çünki artıq ermənilər dünyaya car çəkərək Bakı hadisələri haqqında teleqramlar vurur, öldürülənlərin on-on beş min nəfərə çatdığını bildirirdilər. Xəbərlər imperiya ərazisindən çıxaraq Avropaya qədər yayılmışdı [2, 319].

Əhməd bəy Ağaoğlu "Qafqaz" qəzetinin 40-cı nömrəsində tirajlanmış, öz dili ilə desək "gizli məramla yazılan bir mülahizə"ni təqdim edir: "Bakıdan bizə yazırlar ki, üçgünlük qırğından sonra ermənilər şəhərin erməni məhəlləsində toplaşıblar. Ermənilərə rus əhalisi çox kömək edir, onlara ərzaq verir. Hər iki tərəfdən ölən və yaralananların sayı guya 1000-ə çatır. 70-dək dükan və çoxlu erməni mənzili dağıdılıb və qarət olunub. Qırğına son qoymaq istəyən rus fəhlələri fevralın 8-də müsəlmanlara bildirmişlər ki, əgər onlar iğtişaşları dayandırmasalar, onda ruslar işə qarışacaq və qırğınlara son qoyacaqlar. Bu təhdidin, görünür, təsiri olmuşdur. Fevralın 9-da erməni və müsəlman ruhaniləri, hər iki tərəfin hörmətli şəxsləri və qubernator şəhərin küçələrində yürüş təşkil etmiş, həmin gün sakitlik bərqərar olmuşdur" [13, 142-143].

Əhməd bəy Ağaoğlu bu gedişlə mətbuat xadimlərinə bu cür şayiələrə inanmamağı tövsiyə edir və mətbuatın indiki dövrdə ən ümdə vəzifəsinin qırğınları hərəkətə gətirən qüvvələri ifşa edərək onların cəmiyyət qarşısında layiqli cəza almalarını təmin etməkdən ibarət olduğunu vurğulayır.

6-9 fevral tarixlərində baş verən erməni-müsəlman qırğınları ilə bağlı Əhməd bəy Ağaoğlunun yazdığı məqalələrdən biri də “Qadın nümunəsi”dir. 17 fevralda dərc etdirdiyi bu məqalə digər yazılarından seçilir. “Kaspi”nin 25-ci nömrəsində çap olunan bu məqalədə o, övladları həlak olmuş bir erməni qadının dəfn zamanı ermənilərə fəryad edərək müsəlmanlarla ədavəti dayandırmağa və bu faciəyə son qoymağa çağırmışdı. Bu hadisədən çox mütəəssir olan Əhməd bəy Ağaoğlu qadına müraciətən yazır: “Qoy sənin nümunən bizim hamımıza dərs olsun. Qoy hamının dəhşətli qəmə qərq olduğu, beyinlərin dumanlandığı, ürəklərin parçalandığı bu çətin günlərdə sənin vətəndaşlıq şücaətin bizim üçün xilas teli olsun. Bizim nicatımız yalnız qarşılıqlı bağışlamada, yalnız qarşılıqlı sevgidədir” [5, 3]. Əhməd bəy sözügedən dəfn mərasimində böyük ehtimalla şəxsən iştirak etməmiş, əhvalatı şəhərdə eşidərək daha sonradan qeydə almışdır.

Fevral hadisələri ilə bağlı Rusiya mətbuatında gedən xəbərlərdə əsasən Azərbaycan türkləri təqsirkar kimi qələmə verilirdi. Moskvada dərc olunan “Russkoye slovo” qəzetində V.M.Doroşeviç Azərbaycan əhalisini irqi və dini baxımdan qısqanc bir millət kimi təqdim edir. Əhməd bəy Ağaoğlu 19 fevralda “Kaspi” qəzetinin 27-ci nömrəsində “Böhtan” adlı yazısında cənab Doroşeviçi klerikalizm cərəyanının (Klerikalizm – Cəmiyyətin ictimai, siyasi və mədəni həyatında kilsənin və ruhanilərin aparıcı rolunun təmin edilməsinə yönəlmiş siyasi cərəyan [14, 102]) nümayəndəsi və onun çalışdığı qəzeti də “klerikal orqan” adlandırır. Klerikallara görə əgər kilsə və milliyyət cəhətdən iki fərqli tip mövcuddursa və yanbayan yaşayırsa onlar arasında mütləq ədavət yaranmalıdır” [6, 3]. Əhməd bəy Ağaoğlu burada Doroşeviçin mövqeyini tam ifşa edərək onun bu “saxta gediş”ini tənəzzül etdirir. Əhməd bəy bildirir ki, qanlı hadisələr zamanı Doroşeviç Bakıda olmadığı üçün kənardan mülahizələr səsləndirmək onun üçün rahatdır. Qafqazda bu iki millət arasında heç bir zaman ədavət olmayıb, onlar əsrlər boyu sülh və əmin-amanlıq şəraitində mehriban qonşu kimi yaşamışlar. Zaman-zaman kiçik mübahisələr və narahatlıqlar, rəqabətlər mövcud olsa da, dünyanın harasında bunlar yoxdur ki? Artıq bundan sonra Əhməd bəy Ağaoğlu Doroşeviçin bütün həmləsini puç edərək onun özünə ritorik suallar verir: “Məgər ermənilər azərbaycanlıların yaşamadığı, yalnız pravaslavlardan və ruslardan ibarət yekcins Moskvada mübahisə etmirlər, narahat olmurlar? Əlbəttə, bizdə də tacirlər, sənayeçilər, fabrik-zavod sahibləri rəqabət aparır, bir-birinə qarşı intriqalar qurur. Lakin harada bu yoxdur? Məgər Londonda, Parisdə, Berlində bunlar daha kəskin, daha qəddar, daha qeyri-insani formada baş vermirmi, adamların həyatına, namusuna, adına qıymırmı?” [6, 3].

Doroşeviç öz məqaləsində Bakı hadisələrinin səbəbi kimi Türkiyə, İstanbul mərkəz olmaqla müsəlmanların oradan qızışdırıldığını vurğulayır. Əhməd bəy Ağaoğlu ona cavabında bu iddianı ağılsızlıq adlandırır və Bakı hadisələrinə bu cür don geydirməyi Kişinyovda, Qomeldə, Varşava, Peterburq və Moskvada baş verənlərə göz yummaqla bərabərləşdirir. Qeyd edək ki, Əhməd bəy Ağaoğlu burada 1905-ci il 9 yanvar hadisələrinin əvvəlini və sonrasını nəzərdə tutur. Çar Rusiyası tarixində “qanlı bazar” adlandırılan hadisədə çara müraciət üçün “Qış sarayı”nın qarşısına toplaşmış minlərlə insan hökumətin məsələni yanlış anlaması nəticəsində çarın əmri ilə gülləyə verilərək öldürülür. Hadisədə yüzdən çox qadın və uşaq qətlə yetirilir. 9 yanvar hadisələrindən sonra Rusiyada fəhlə sinfi tətillərə başlayır və ölkə ərazisində rus-yapon müharibəsinin də təsir etdiyi siyasi və iqtisadi böhran başlayır. Əhməd bəy Ağaoğlu Sankt-Peterburqda bir ay əvvəl hökumətin törətdiyi bu hadisələrə və qeyd etdiyi kimi, digər şəhərlərdə baş tutan tətillərin səbəblərinə Doroşeviçin göz yummasını, lakin Bakı hadisələrinə Moskvadan “barmaq” uzatmasını ciddi şəkildə tənqid edir. Bununla da Əhməd bəy Ağaoğlu məsələnin miqyasını Bakıdan çıxararaq dünyanın əhəmiyyətli paytaxtları ilə müqayisəyə gətirir. Beləcə, dövri mətbuatda tirajlanan belə cılız xəbərlərə, həmçinin ermənilərin Avropaya qədər çatdırdığı “faciə”yə birmənalı olmayan, təkcə müsəlmanları qınaq atəşinə tutan qüvvələrə cavab vermiş olur.

1905-ci il 6-9 fevral hadisələri Əhməd bəy Ağaoğlunun fikrincə, kortəbii baş verə bilməzdi. O düşünürdü ki, bu iki millət arasında milli ədavət ola bilməz və baş verənlər yalnız kənardan – “mərkəz”dən xüsusi təlimatlandırma ilə baş tuta bilər. O, bunu açıq-açıq etiraf etməkdən də çəkinmirdi. İctimai və siyasi xadim kimi Əhməd bəy Ağaoğlunun bu fikirləri təbii ki, hakim dairələr və siyasi elitalar tərəfindən birmənalı qarşılanmır, onun özünü tənqid hədəfinə çevirirdi. Bu səbəbdən də, Bakı hadisələrinin hökumət tərəfindən nəzarətə götürülüb araşdırılması zamanı istintaq Əhməd bəy Ağaoğludan da yan keçmir. O, istintaqa çağırılaraq 6-9 fevral hadisələri ilə bağlı müstəntiq İ.Lyaxoviç tərəfindən dindirilir [10].

Əhməd bəy Ağaoğlunun 6-9 fevral qırğınaları ilə

bağlı fevralın 24-də istintaqa verdiyi ifadədə o, faciə baş verən günlərdə evində olduğunu və faciənin ikinci günü rus köməkçisi vasitəsilə Bakı quberniya qazısı Ağa Mirməhəmməd Kərim Cəfərova, vəkil Mixail İvanoviç Papacanova və şəhər başçısı K.A. İretskiyə məktublar göndərdiyini bildirir [10].

Quberniya qazısına göndərdiyi məktubda ondan xahiş edir ki, erməni vikari (əvəzedici şəxs – Ə.Ağaoğlu burada erməni ruhani şəxsi işarə edir – A.Nadirov) ilə küçələrə çıxıb insanları sakitləşdirsin, çünki o, ancaq ruhanilərin bu işi sakitləşdirəcəyinə inanırdı. M.İ.Papacanova olan ikinci məktubunda onun erməni vikarisini məlumatlandırmasını xahiş edir və şəhər başçısının ünvanını alaraq, üçüncü məktubunu cənab İretskiyə yazır. İretskiyə də bildirir ki, qubernatordan konvoy alaraq bu vasitə ilə deputatları dumaya toplasın və şəhərdə yürüyüş təşkil etsin.

İstintaqa verdiyi ifadədən aydın olur ki, Əhməd bəy Ağaoğlu 7 fevral axşam saat 9-da vitse-qubernator P.A.Lileyevin qəbulunda olub. Görüşdə vitse-qubernatora bildirib ki, qırğınların dayandırılmasında ən vacib addım şəhər ruhanilərinin insanların qabağına çıxmasıdır və bu, təxirəsalınmaz addımdır. Cənab Lileyev də Ağaoğluna bildirir ki, bunu qubernatora mütləq çatdıracaq [13, 148].

6-9 fevral qırğınları ilə bağlı Əhməd bəy Ağaoğlu öz fikirlərini istintaqa belə çatdırır: "Hadisələrin özünə, onların səbəblərinə gəldikdə isə mən yalnız cəmiyyət arasında deyilənləri bilirəm. İğtişaşlardan bir neçə ay əvvəl xalq arasında həyəcanlı şayiələr yayılırdı. Onların kimlər tərəfindən və nə məqsədlə yayıldığı mənə məlum deyil. Müsəlmanlar arasında danışırdılar ki, ermənilər onları qırmağa hazırlaşır, ermənilər arasında isə bunun əksini. Mən dəfələrlə öz erməni tanışlarımla bu şayiələr haqqında danışmışdım, lakin biz hər dəfə adi sözlərlə kifayətlənib fikirləşirdik ki, bütün şayiələr diqqəti daxili siyasi iğtişaşlardan yayındırmaq üçün yayılır" [10]. Əhməd bəy Ağaoğlu istintaqın sonunda iki millətin bir-birinə qarşı qızışdırılması üçün xalq arasında yayılan "vərəqə"lərdən də danışır. Bildirir ki, qırğınlardan daha əvvəl belə vərəqələrdən birini Azərbaycan dilində oxuyub. Orada əhaliyə xəbərdarlıq edilir ki, ermənilər və müsəlmanlar arasında qırğın törədiləcək. Əhməd bəy Ağaoğlu qeyd etdiyi belə vərəqələr təkcə azərbaycanlılar arasında deyil, həmçinin ermənilər arasında eyni məzmunda yayılmışdı. Lakin bu vərəqələrin heç biri sübut kimi istintaq tərəfindən müəyyən edilməmişdir.

Əhməd bəy Ağaoğlunun erməni-müsəlman davasının həlli yolunda missiyasını erməni yazıçısı A.M. Şirvanzadənin "Sankt-Peterburqskiye vedomosti" qəzetindəki qeydlərində görmək olar. A.M.Şirvanzadə hələ 1905-ci ilin yanvar ayında Bakıya gəlir və burada yayılan şayiələri eşidir. Bu şayiələrdən dolayı narahatlıq keçirir və gözlənilən erməni-müsəlman münaqişəsi ilə bağlı bəzi erməni ziyalıları ilə görüşərək fikir mübadiləsi aparır [13, 26-27]. Erməni ziyalılar Şirvanzadəni müsəlman ziyalıları ilə görüşüb məsləhət etməsi üçün "Cənab Ağayev"ə yönləndirirlər. Şirvanzadə qeydlərində Əhməd bəyin bu mövzuda çox həssas olduğunu və millətlər arasında baş verəcək belə münaqişəyə qarşı olduğunu yazır. A.M.Şirvanzadə Əhməd bəy Ağaoğlu ilə görüşündən bir müddət sonra "Kaspi" qəzetinin redaksiyasında yanvarın sonunda erməni və müsəlman əhalinin münasibətlərinin nizama salınması ilə bağlı müşavirə keçirilir. Lakin tarix göstərir ki, bütün səylər və görüşlər mövcud münaqişənin həllinə təsir göstərə bilmir.

1905-ci il 6-9 fevral qırğınların nəticələrinin aradan qaldırılması ilə əlaqədar fevralın 13-də qubernator M.A.Nakaşidzenin sədrliyi ilə keçirilən iclasda Bakı qırğınlarına yardımın göstərilməsi səlahiyyəti şəhər dumasına verildi. Fevralın 19-da bu məqsədlə komitənin ilk iclası keçirilmiş, komitənin tərkibi təsdiq edilmiş və Əhməd bəy Ağaoğlu da komitənin tərkibinə daxil edilmişdir. Əhməd bəy Ağaoğlu 19 martadək komitənin iclaslarında müntəzəm iştirak edərək qırğınlarda zərərçəkmişlərin qiymətləndirilməsi üzrə fəaliyyət göstərmiş və bu tarixdən sonra Sankt-Peterburqa getdiyi üçün komitədə əvəz olunmuşdur.

Sankt-Peterburq müşavirəsi millətlər üçün olduqca önəmli idi. Əhməd bəyin orada iştirakı əvvəlcə Dumada təsdiqlənməsə də, görünür ki, sonradan qərarda dəyişiklik edilərək onu da heyətə daxil etmişlər.

1905-ci ilin mart ayının ikinci yarısında nümayəndə heyəti Sankt-Peterburqa yola düşür. Əhməd bəy Ağaoğlu oraya çatar-çatmaz rus mətbuatında Bakı hadisələri haqqında həqiqətləri əks etdirən məqalələrlə çıxış edir. "Sankt-Peterburqskiye vedomosti" qəzetinin 1905-ci il 21 aprel (4 may) tarixli nömrəsində Əhməd bəy "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsini dərc etdirir. Məqalədə Bakı hadisələrini törədənlərin məqsədinin ikili olduğunu qeyd edir. Birinci tərəf baş verənləri yerli administrasiyanın üstünə yıxmaq, ikincisi müsəlman azərbaycanlıları quldur və başkəsən rolunda təqdim etmək.

Əhməd bəy mətbuatda tirajlanan birtərəfli mövqeləri qınayaraq qeyd edir: "Qanlı Bakı ha-

disələrini gözləri ilə görən, qırğın zamanı və ondan əvvəl baş verən bütün təfərrüatlara yaxşı bələd olan insan kimi əminliklə və qətiyyətlə deyə bilərik ki, müsəlmanların Bakı hadisələri qırğınındakı rolu haqqında bütün bu qəzet təbliğatı yalnız yalan üzərində qurulub. Müsəlmanların rolu eynilə ermənilərin rolu qədər olub. Qırğına gətirib çıxaran səbəblərdən asılı olmayaraq, ermənilər də, müsəlmanlar da qırır, qarət edir və yanğın törədirdilər [8, 1].

Əhməd bəy Ağaoğlu həmçinin erməni-müsəlman qarşıdurmasının ciddi səbəblərini açıqlayarkən onun köklərinin şəhər özünüidarəçiliyində disbalansın olması ilə əlaqələndirir. Şəhər əhalisinin 75 faizini müsəlmanların təşkil etməsinə baxmayaraq, dumada yalnız sonradan göstərilən "iltifat" nəticəsində müsəlman üzvlər ümumi üzvlərin yalnız yarısını təşkil edirdi. Bundan başqa, ermənilərə imperiya daxilində geniş səlahiyyətlər verilməsinə baxmayaraq, müsəlman əhaliyə məhdud səlahiyyətlərin verilməsindən şikayətlənən Əhməd bəy Ağaoğlu qeyd edir: "Əlbəttə, bütün bunlar şəhər əhalisinin iki hissəsi arasında xüsusi dostluq münasibətlərinə səbəb ola bilməzdi və şər qüvvələr üçün hər cür qarışıqlıq salmağa təbii zəmin yaranırdı" [8, 1].

22 aprel (5 may) tarixində qəzetin 98-ci nömrəsində "Bakı hadisələri haqqında həqiqət" adlı yazısının davamı olaraq Əhməd bəy qırğınların necə başlaması və gedişatı, həmçinin zərərçəkənlər barədə dəqiq faktlarla çıxış edir: "Dəqiq yoxlamadan sonra bəlli oldu ki, zərərçəkənlərin sayı minlərlə deyil, əslində 700 nəfərdir. Onlardan 300 nəfər qətlə yetirilmiş, 400 nəfər yaralanmışdır. Öldürülənlər arasında 130 müsəlman və 170 erməni vardır" [9, 1]. Əhməd bəy Ağaoğlu qeyd etdiyi dəqiq rəqəmləri 1864-cü ildə Bakıda yaradılmış Erməni İnsanpərvərlik Cəmiyyətinin fevral qırğınları ilə bağlı apardığı yoxlamadan əldə etmişdir.

Göründüyü kimi, Əhməd bəy hadisələrə obyektiv gözlə baxmağa çalışır, böyük humanistlik göstərərək təkcə müsəlmanların günahsız olduğunu deyil, eyni zamanda ermənilərin də günahsız olmadığını, dolayısı ilə münaqişənin hansısa mənfur güclər tərəfindən qarşılıqlı şəkildə başladıldığını vurğulayırdı. "Sankt-Peterburqskiye vedomosti"nin 117-ci nömrəsində "Məcburi cavab" adlı məqaləsində qeyd edir ki, münaqişə elə bir zamanda baş verdi ki, bu zaman kəsiyində mən və nümayəndə heyəti Peterburqa rus cəmiyyətindən və rus hökumətindən müsəlmanlara imperiyanın digər sakinləri ilə bərabər hüquqların verilməsi, tamhüquqlu vətəndaş olmaq üçün vəsiqə verilməsi üçün xahiş etməyə gəlmişik. Rusiya mətbuatında da müsəlmanların Bakı hadisələrində əsas təqsirkar olaraq tirajlandığı bir vaxtda bizim bu istəklərimiz də qəbul edilməyəcəkdi [7, 1]. Bu səbəbdən dolayı Əhməd bəy Ağaoğlu bir müsəlman kimi mətbuatda tirajlanan Bakı hadisələri ilə bağlı xəbərləri yalanlayır və əsl həqiqətləri üzə çıxarmağı özünə missiya hesab edir

Sonda qeyd etmək lazımdır ki, 1905-ci ilin sonlarına doğru Əhməd bəy erməni-müsəlman məsələsinin dinc və humanitar yollarla həll edilməsinin mümkünsüzlüyünün fərqinə varır və 1905-ci il noyabr ayında erməni daşnaklarının terror hərəkətlərinə qarşı silahlı mübarizə-müdafiə yolunu seçən "Difai" təşkilatının qurucu ideoloqlarından birinə çevrilir.

Əhməd bəy Ağaoğlu erməni-müsəlman qırğınlarının başladığı ilk günlərdən öz ictimai və siyasi reputasiyasından istifadə edərək məsələnin kökündən, səbəblərindən, gedişatından bəhs edən məqalə və tezislərlə çıxış edir, problemin aradan qaldırılması üçün həlli yolları təklif etməkdən çəkinmir. Onun bu timsaldan olan əsərləri Azərbaycan tarixşünaslığında "erməni-müsəlman" məsələsinə obyektiv qiymət vermək və həqiqətlərin dünyaya çatdırılması üçün kifayət qədər sanballı əsərlərdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Bakinskiye izvestiya", 13 fevral 1905, N:22, s.3*

*2. "Kaspi – maarifçilik meydanı". Bakı, "Zərdabi LTD" MMC, 2016, 652 s.*

*3. "Kaspi", 13 fevral 1905, N:22, s.3*

*4. "Kaspi", 15 fevral 1905, N:23, s.3*

*5. "Kaspi", 17 fevral 1905, N:25, s.3*

*6. "Kaspi", 19 fevral 1905, N:27, s.3*

*7. "Sankt-Peterburqskiye vedomosti" 11 may 1905-ci il, N:114, s.1*

*8. "Sankt-Peterburqskiye vedomosti" 21 aprel (4 may) 1905-ci il, N:97, s.1*

*9. "Sankt-Peterburqskiye vedomosti" 22 aprel (5 may) 1905-ci il, N:98, s.1*

*10. AR DTA: f.185, siy.11, iş 73, vv.96-98*

*11. AR DTA: f.389, siy.7, iş 827, v.95*

*12. AR DTA: f.389, siy.7, iş 827, v.96-97*

*13. Əhməd bəy Ağaoğlu. Qafqazda milli məsələ. Məqalələr və sənədlər toplusu. / Tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.R.Cabbarov. - Bakı: Mütərcim, 2019. - 276 s.*

*14. Zeynalov İ.X. İzahlı tarix terminləri lüğəti, Bakı, Azərnəşr, 2006, s. 102*

**XÜLASƏ**

XX əsr Azərbaycan tarixinin görkəmli şəxsiyyətlərindən olan Əhməd bəy Ağaoğlu yerinə yetirdiyi missiyalara görə tarixşünaslıqda xüsusi dəyərə sahibdir. Onun ictimai xadim kimi 1905-1906-cı illərdə Bakı mərkəz olmaqla bir çox bölgələrdə baş verən erməni-müsəlman toqquşmaları zamanı mətbuatda çıxışları, eləcə də öz siyasi kimliyindən istifadə edərək nüfuzlu dövlət məmurlarına məktubları mövcud problemin həllində böyük irəliləyişlər əldə etmişdir. Habelə 1905-ci ildə Sankt-Peterburqda Azərbaycan heyətinin tərkibində iştirak etməsi və beynəlxalq aləmdə yayılmış saxta "erməni" qırğınlarına qarşı çıxaraq məqalələr dərc etdirməsi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük əhəmiyyət daşımışdır. Bu baxımdan onun yaradıcılığı və fəaliyyəti Azərbaycan tarixşünaslığına böyük töhfələr verir.



**Açar sözlər:** *Əhməd bəy Ağaoğlu, 1905-1906-cı il erməni-müsəlman qırğınları, erməni-müsəlman davasının tarixşünaslığı.*



**РЕЗЮМЕ**

Ахмед бек Агаоглу, одна из выдающихся личностей истории Азербайджана XX века, имеет особую ценность в историографии благодаря выполняемым им миссиям. Как общественный деятель, его выступления в прессе во время армяно-мусульманских столкновений, происходивших во многих регионах с Баку в качестве центра в 1905-1906 годах, а также его письма влиятельным государственным чиновникам с использованием его политической идентичности позволили добиться большого прогресса в решении текущая проблема. Кроме того, его участие в азербайджанской делегации в Санкт-Петербурге в 1905 году и публикация статей, направленных против фальшивых «армянских» массовых убийств, распространявшихся в международном мире, имели большое значение в донесении до мира правды об Азербайджане. В этом отношении его творчество и деятельность вносят большой вклад в азербайджанскую историографию.



**Ключевые слова:** *Ахмед бек Агаоглу, армяно-мусульманские погромы 1905-1906 годов, историография армяно-мусульманского конфликта.*



**SUMMARY**

Ahmed Bey Agaoglu, one of the outstanding personalities of the history of Azerbaijan in the 20th century, has a special value in historiography due to the missions he performed. As a public figure, his speeches in the press during the Armenian-Muslim clashes that took place in many regions with Baku as the center in 1905-1906, as well as his letters to influential state officials using his political identity made great progress in solving the current problem. Also, his participation in the Azerbaijani delegation in Saint Petersburg in 1905 and his publication of articles opposing the fake "Armenian" massacres spread in the international world were of great importance in conveying the truths of Azerbaijan to the world. In this regard, his creativity and activity make great contributions to Azerbaijani historiography.



**Keywords:** *Ahmet Bey Agaoglu, Armenian-Muslim massacres of 1905-1906, historiography of the Armenian-Muslim conflict.*